## Müasir Dövrdə Yaşayan Dədə Qorqud əfsanəsi

# DÜNYAYA ƏBƏDİ NURDUR MƏHƏMMƏD

## Şair Mirəli Abbasın yaradıcılıq həyatına qısa bir baxış



*Səhra REZAYİ,*
*yazar, jurnalist və tərcüməçi*
*rezayi.sahra@gmail.com*

*Azərbaycandan gələn qonağımız şair Mirəli Abbas üçün ithaf olunur.*

«Dünyaya əbədi nurdur Məhəmməd» - hər cümləsinin əvvəlində yer alan bu beyt, şairin ilahi ruhundan və ənbiyalara bağlılığından xəbər verir. Müasir dövrün Dədə Qorqudu kimi görünən şairimiz Mirəli Abbası illər sonra yenidən gördüm və onun dərin mənalı, könül oxşayan qəzəllərinin qonağı olduq.

İllər öncə nəşriyyatda tanış olduğum ağsaqqal şair, xəstələnib yatağa düşsə də, heç zaman haqq söz deməkdən, qələmini həqiqət yolunda oynatmaqdan vaz keçməyib.

Türk dünyasına böyük hörmət və sarsılmaz inam bəsləyən Mirəli Abbas hər zaman türklərin birliyini dilə gətirib və ən böyük arzusu yazdığı ilahi kəlmələri və düşündürücü sözləri bütün türk millətinə çatdırmaqdır.

Onlarla kitabın müəllifi olan bu böyük sənətkar, son əsəri «Mən sizinlə görüşə gəlmişəm»də bütün türk dünyasına müraciət edərək onları dürüstlüyə və birliyə çağırır. Atalar sözləri və gözəl qəzəllərlə bəzənmiş bu kitabın üz qabığı da məna yükü daşıyır: türk xalqlarının bayraqları ilə işlənmiş, ay-ulduz işığında görünən qılınc və saz - türklüyün iki əzəli rəmzi kimi bu müqəddəs dünyanı qoruyur və nurlandırır.

**MİRƏLİ ABBAS** - 1950-ci il iyulun 2-də Ağsu rayonunun Şahbəyli kəndində dünyaya göz açıb. Tam orta təhsillidir. Şair öz bacarığı nəticəsində hərbi sirlərə, astronomik elm-lərə, Qurani-Kərimə, islam-şünaslıq elminə, əxlaqi-nasirə yiyələnib.

Uzun müddət Neft daşla-rında, sonra DİN-nin orqanlarında və Ağsu rayonda Su-meliorasiya idarəsində çalışıb. Hazırda təqaüd-çüdür. Müdrik kəlamlar və gözəl qəzəllər müəllifi kimi tanınır. 6 kitab müəllifidir. AYB-nin və AJB-nin üzvüdür. "Atatürk", "Zira" və "Qızıl qələm" mükafatları laureatıdır.

"Mirali Abbas" halhazirda Azarbaycanin bir rayonu olan "Ağsu" şəhərində yaşayır. Yaşamağına baxmayaraq bu sadə insan dünyəvi dinlərin incəliklərindən məlumatlıdır və sər-rəştəsi vardır. Çox maraqlı insandır.



Şair Mirəli Abbasın yaradıcılığ həyatına qısa bir baxış

Yaradıcılığı ilə tanış olduğum şair "Mirəli Abbas" haqqinda söz deməyə heç kəs çətinlik çəkə bilməz. Onun əsərlərindən məlum oldu ki şair öz dinini, islamını, türkçülüyünü, göz bəbəyi kimi qorumağı bacaran bir şairdir. Onun hər cümləsi millətinin köməyə, səfərbərliyə çağırır. Şair bir sözlə dərdini dünyaya, millətinə öz oğlanlarına çatdırıb. "Oğul vətən əmanəti ha" bu cümlə ilə demək istəyir ki, yad ellərin bir məqsədi var. Mənim vətənimi, sərvətimi, dinimi və dilimi almaq istəyirlər. Yalnız məqsəd budur.

Birinci kitabı kimi ikinci kitabında da şair başqa bir müdrik cümlə ilə kitabının üz qabığını bəzəmişdir.

Şair "Oğul sən məndən böyüksən səngər dalında" adlı ikinci kitabında, vətən səngərində dayanan oğulları vətənin ən böyük və cəsur oğulları adlandırıb, vəsf eyləmişdir. O oğul ata anasının qeyrətini və dövlət rəmzi olan bayrağını, ərazi bütövlüyünü qoruyur. Şairin bu kitabındakı yazılar birliкə çağırır. Islam dünyasına çağırışdır. Şairin rəyicə "Mənim Allahım" poeması Allaha inanmayan insanlara işarədir.

Mirəli abbas islam dininin banisi Məhəmməd peyğəmbəri əsas götürərək islamı qəbul edən millətlərə qardaşdır və qardaş da olacaq deyərək, bütün islam dunyasını birliyə, ədalətə, paklığa, biri-birinə arxa olmağa və olmuş səhvlərin güzəştə getməyə çağırır. Şairin yaradıcılığına baxanda fikirləri peyğəmbərin fikirlərinə, Qurana' islamşünaslıq elminə söykənir. şairin bir şeirini nəzərdən keçirək:

Kəbə böyük səcdəgahdı
Insanlara qismət ola
Dinimizə bir dayaxdı
Peyğəmbərə hörmət ola
Ənbiyalar övliyalar
Tanrımızın şah damarı
Həzrət Əli verdi qərar
Cənnət yolun açanları
Hər duamız qəbul olar
Şeytan çıxsa aramızdan
Dünya ilə cənnət qalar
Ayrılmarıq babamızdan

Şair bu şeirdə həzrəti İbrahimin ziyarətgahını səcdəgah edərək məhəmməd peyğəmbərin babası dininin əsaslı böyük bir səcdəgah olaraq islam dünyasını qardaşlığa çağırır.

İslam dünyası, Məhəmməd Peyğəmbər (s)dən sonra İslam ölkələrində Quran-Kərimdən bəhrələnmiş dahi şairlərin əsərlərini oxumuş, onların dünya ədəbiyyatına verdiyi xeyri açıqlamağı bacarır. O, dəbir tək Allahlığın, İslam Allahının dünyaya düzlüyünə olaraq ilahi göstərişdir.



Şairi zaman özü yetişdirmişdir. Onda ilahi qüvvəsinin öz köməyi vardır. Onun yaradıcılığında fəlsəfi dəyərlər tapıntılar çoxdur. Bir şeirinə baxaq.

Ne gözəl qiymətin var idi sənin.
Xainə düz qiymət verdin İlahi.
Birini kor etdin, birini xəstə,
Birinə mehnət verdin İlahi.

Kor göz üstünə istiyənə tez çəkdin pərdə,
Kimini saldın sağalmaz dərd-ə.
Baxıb ürəklərə girən də qəlbə,
Şeytana lənət verdin İlahi.

Bütün insanların düz gözündəsən,
Təbibsən, dərman sən, yer özündə sən,
Bu pər köрəmizin hər yerində sən,
Xainə zillət verdin İlahi.

Ətirini sən verdin bağı-bağçanı...
Hörmətin saxladın cavanın sağın,
Qartalın yolladın zirvənin dağı,
Xainə zillət verdin İlahi.

Mirəliyəm, səndən oldu kəsirim,
Xalq oxuya, məşhur ola əsərim.
Qeyrətindən vardı belə xəbərim,
Bir mənə xoş əzab verdin İlahi.

**Günəş Nurdur, Torpaq Məhəbbət**

İslam dininin mahiyyətini dərk edib onu qəbul edən insan, əvvəlcə öz əxlaqi tərbiyəsini nəzərdən keçirməlidir. Analıq tərbiyəsi isə daha da kamilləşdirilməlidir. Müəllif bu mövzuya aydınlıq gətirmək üçün iki yüzdən artıq atalar sözünü nümunə olaraq toplamışdır. Məsələn, o, müxtəlif məna çalarlarına sahib atalar sözlərini diqqətlə araşdırmış və əsərdə yer vermişdir.




«Atalar Sözü» - Mirəli Abbasın ədəbi irsinin ən nurlu səhifələrindən biridir. Bu kitabda şair, əsrlərin yaddaşından süzülüb gələn türk-məişətli məsəlləri yeni bir nəfəs, yeni bir hikmətlə yenidən diriildir. Lakin «Atalar Sözü» yalnız toplanmış deyimlərin kitabı deyil; o, bir el ağsaqqalının - Mirəli Abbasın - həyatın dərin qatlarından süzülüb gələn söz sınaqlarının göstəricisidir.

Mirəli Abbas, öz müdrikliyinin, el sevgisinin və illərin müşahidəsinin bəhrəsi olan bir çox məsəlləri özünün yaratdığı kimi, onları türk dünyasının ədəbi xəzinəsinə də əbədi yadigar etmişdir. Bu kitabda yer alan hər bir söz, bir nəsihət işığı, bir yol göstəricisi, bir ömür dərsidir. O, xalqını doğru yaşamağa, düz yol tutmağa, insanlığın və mərifətin həqiqi mənasına qovuşmağa çağırır.

«Atalar Sözü» həm keçmişin nəfəsini daşıyır, həm də bu günün insanına işıq saçır. Mirəli Abbasın hikmət dolu kəlamları oxucunun könlünü oyadır, düşüncəsini zənginləşdirir və türk ruhunun sarsılmaz dayaqlarını xatırladır. Bu kitab - ağsaqqal sözünün, el yaddaşının və mənəvi irsin çağlara səslənən əbədi sədasıdır.

«İndi isə bu atalar sözlərindən bir neçəsi aşağıda verilir. Bu kəlamların çoxu elə müəllifin özünə məxsusdur; o, el-obanın ağsaqqalı kimi ətrafındakı insanların ehtiyaclarını dərk edərək onları qələmə almışdır.»

Allahın nuru bəşərin gözəlliyidir.
Rəhbərin böyüklüyü ölkənin abadlığıdır.
Günəş nurdur, torpaq məhəbbət.
Şəhər gözəldirsə, memarı gözəldir.
Suların duruluğu qadın həyasina bərabərdir.
Sədaqətli adam Tanrı məktəbindən bəhrələnib.
Qumara girən həyatını uduzar.
Nəfsi çox olan oğru olar ya dilənçi.
Ağıllı gelini olan ailə nəsli bəxtəvər edər.
Falçı gəzən qadın şeytanın bacısıdır.
Qapi gəzən qadından ailə olmaz.
Çox ağac əkən cənnətə gedər.
Uşaq böyüyü aldatdırsa, o el dağılacaq.
Qaçqının qəlbinə dəymə, dərdi özünə bəsdir.
Yaltaq adam pisi tərifləyər.
Bir yalanın bəlasın bir el çəkər.
Səhvindən utanmayan Allahdan utanmaz.

*(Davamı 9-cu səhifədə)*

## Müasir Dövrdə Yaşayan Dədə Qorqud əfsanəsi

# DÜNYAYA ƏBƏDİ NURDUR MƏHƏMMƏD

## Şair Mirəli Abbasın yaradıcılıq həyatına qısa bir baxış



(Əvvəli 8-ci səhifədə)

Mirəli Abbasın atalar sözü toplusuna oxuyub nəzər salandan sonra tam bilmək olur ki, şairin fikri nədir, onun ideyası həyatın elmi gözəlliyi ilə bağlıdır. Öz doğma islamına nə qədər gərəkli-dir. Onun ilahi qüvvə-sinə bütün islam dünyasına və islamı dəyərlərə qiymət verməgi bacaran d bir şair olduğunu əyan göstəricidi.

### Iki Kitab Bir Söz




Mirəli Abbasın «Qəzəllər və Gözəllər» kitabı, klassik şeir nəfəsinin müasir duyğularla qovuşduğu nadir bir əsərdir. Bu kitabda söz, həm könülün sirlərini açır, həm də gözəlliyin ən incə çalarını naxış-naxış oxucuya bəxş edir. Şairin qələmində hər qəzəl bir pıçıltı, hər misra bir nəfəs, hər obraz isə həyatın içindən süzülüb gələn bir nur kimidir. Əsər, oxucunu həm qədim poeziyanın zərif dünyasına aparır, həm də bu günün duyğularını özündə yaşadan bir ruhla qucaqlayır. Qəzəllər və Gözəllər sözün gözəlliyinə səcdə edən hər kəs üçün unudulmaz bir poetik səfərdir.

«Mir Əli Abbas»ın «Vicdan lövhələri» kitabı, sözün qəlbin dərinliyinə düşdüyü, insanın içində gizlənən sükutun səsini oyatdığı poetik bir yolçuluqdur. Bu kitabda şair hər misranı bir güzgü kimi qarşıya qoyur - oxucu həmin güzgüdə həm özünü görür, həm də insanlığın sərt, amma ədalətli vicdan səsini eşidir.

Şeirlərdəki sadəliklə dərinlik birbirinə qarışır: bəzən bir kəlmə bir ömürlük düşüncəyə açar verir, bəzən bir misra unudulmuş duyğuları oyaq salır. «Vicdan lövhələri» həm həyatın ağrılarını, həm də onun gözəlliklərini sözün zərif əlində yoğrulmuş bir tablo kimi təqdim edir. Kitab, iç dünyası ilə üzləşməkdən çəkinməyən hər oxucu üçün bir ruh nəfəsi, bir mənəvi dayanacaqdır.

### Şairin İranda çap olunan əsərləri



### Mənim Allahim

«Mənim Allahım» kitabı, məşhur şair Mir Əli Abbas tərəfindən yazılmış və həm Təbriz, həm də Zəncan şəhərlərində nəşr edilmişdir. Kitabın ön sözü onun uzun poema əsəri «Mənim Allahım»dır.

Bu kitab, şairin dərin dini, fəlsəfi və ilahi düşüncələrini əks etdirən müxtəlif şeirlərdən, qəzəllərdən və rübailərdən ibarətdir. Eyni zamanda vətən sevgisi və milli ruh da əsərin əsas mövzularından biridir.

«Mənim Allahım» həm oxucunu ruhani bir səyahətə çıxarır, həm də şairin öz inam və düşüncələrini incə bir poetik dillə təqdim edir.

bu əsər,2017-ci ildə Təbriz və Zəncan şəhərlərində nəşr edilmişdir. Kitabın ön sözü onun uzun poema əsəri «Mənim Allahım»dır.

Bu kitab, şairin dərin dini, fəlsəfi və ilahi düşüncələrini əks etdirən müxtəlif şeirlərdən, qəzəllərdən və rübailərdən ibarətdir. Eyni zamanda vətən sevgisi və milli ruh da əsərin əsas mövzularından biridir.

«Mənim Allahım» həm oxucunu ruhani bir səyahətə çıxarır, həm də şairin öz inam və düşüncələrini incə bir poetik dillə təqdim edir.

### Oğul sən məndən böyüksən səngər dalında

«Oğul, sən məndən böyüksən səngər dalında» şeir toplusu vətən sevgisi, qürur və şərəf mövzusunda ilhamverici əsərdir. Şair bu əsərdə tarixə iz qoymuş qəhrəmanların ruhunu oxucuya çatdırır, vətənə bağlılığı, gənclərin gələcəyə inamını və sönməyən ümidini ön plana çıxarır. Hər misra və hər bənd, oxucunu qəhrəmanlıq, mərdlik



və vətənpərvərlik duyğularıyla səngər dalına aparır.

Bu kitab, 2022-ci ildə nəşr olunmuşdur və şeir olmaqdan çox, vətənpərvərlik, vətən sevgisi və gəncləri vətənə sevgi ilə bağlı ruhlandırmaq, bu yolda canlarını fəda etməyə təşviq etmək mövzularını əhatə edir. Bu sahədə şair öz dörd oğlunu ünvanlayır və onları adları ilə qeyd etməklə əslində bütün gəncləri vətənpərvərliyə dəvət edir. Elə ki, onun kitablarından birinin adı da «Oğul, Vətən Əmanətidir»dir.

Burada demək lazımdır ki, şairin son əsəri "Mən Sizlə Görüşə Gəlmişəm", hansı ki, o da şairin incə qələmi ilə gözəl nəsr və nəzm üslubu ilə bəzədilmişdir, 2025-ci ildə Təbriz və Tehranda nəşr olunmuşdur və tezliklə onun səbrlə gözləyən əziz şairinə bir nüsxəsini çatdıracağam.




Mən sizinlə görüşə gəlmişəm

«Mən sizinlə görüşə gəlmişəm» son nəfəs kimi içdən, səmimi bir əsərdı.

Mir Əli Abbasın yeni kitabı «Mən sizinlə görüşə gəlmişəm», oxucunu ilk sətrindən özünə çəkən, insanın iç aləminə açılan bir pəncərə kimidir. Bu kitabda müəllif illərin süzgəcindən keçmiş duyğularını, yaddaşın dərin qatlarında qalmış insanları, görüşə gəlmiş bir qonaq təmizliyi ilə oxucusunun qarşısına çıxarır.

Sözlərinin ahəngi, cümlələrinin sadəliyi və səmimiyyəti kitabı bir gündə oxunan, amma təsiri günlərlə qalan bir əsərə çevirir. Mir Əli Abbas yenə də insanın özünə qayıdış yolunu, xatirələrin işığında yenidən doğuluşu göstərir.

Bu kitab, müəllifin oxucusuna «mən burdayam, sizinlə danışmağa, bölüşməyə gəlmişəm» deyən sakit, dərin və poetik bir salamıdır.

Bu dəyərli kitabın əhəmiyyəti təkcə ədəbiyyat çevrəsi ilə məhdudlaşmır. «Mən sizinlə görüşə gəlmişəm» artıq böyük bir mənəvi yol keçərək Şəhriyar Ev-Muzeyinin rəflərində öz yerini alıb. Bu, Mir Əli Abbasın söz dünyasının ustad Şəhriyarla eyni məkanda nəfəs alması, iki sənət nəfəsinin bir araya gəlməsi kimi simvolik və dərin mənalı bir hadisədir.

Kitabın yaxın günlərdə İstanbulda Dünya Türklüyü Həmrəylik Muzeyinə də hədiyyə ediləcəyi xəberiyse, onun sözlərini sərhədlərdən kənara aparacaq bir körpü kimidir. Bu addım, həm müəllifin yaradıcılığına verilən dəyərin, həm də türk dünyasının mədəni bağlarının daha da möhkəmlənməsinin gözəl bir işarəsidir.

Bu kitab beləliklə təkcə oxunmur - həm də yaşayır, yol gedir, görüşə gəlir.

### Və Nəhayət, Son Söz...

İllər əvvəliydi... Arazın o tayından uzaqlardan bir qonaq gəlmişdi evimizə. Qapını açanda qarşımızda uca boylu, nurlu üzlü bir qoca dayanmışdı - sanki günəşin ilk şüaları onun üzündə əriyib evimizi işıqlandırmışdı. Onu Azərbaycan nəşrlərində tanımışdım; indi isə Ağsudan, Zəngandan kilometrlərlə uzaq bir yerdən, ürəyi dolu səmimiyyətlə evimizin qonağı olmuşdu.

Atamla anam bu görüşdən sevinc içində idi; sevincləri qəlblərində çırpınır, gözlərindən parlaq işıq saçılırdı. Arazın bu tayındakı adət-ənənələrə uyğun olaraq, qonağa səmimi ev sahibliyi etməyə hazırlaşırdılar. Şair isə, sanki hər bağdan bir gül gətirmiş, şeirlər oxuyur, hikmət dolu sözlər söyləyirdi - hər sözündə həyatın mənası və insanlığa sevgisi əks olunurdu.

Bəli, o Mirəli Abbas idi - illər boyu söyləmədiklərini bağçamızın torpağına əkmiş, hər gül və hər yarpaq ilə bizə xatirə qoymuşdu.

Bizi tərk edən şair Meşəd ziyarətinə müşerraf oldmuşdu.

Zaman keçsə də, anam bu dünyanı tərk etsə də, biz və Arasın bu tayındakı bütün azərbaycanlılar sevimli qonağımız, şairimiz Mirəli Abbası səbrsizliklə gözləyirik. Xeste yataqinda yatan şairə uca rebbimden şifalar diləyib gözəl ve temiz urəkli şairimize yeni-yeni uğurlar arzulayırıq!..

Gələcəkdə onun bütün yaradıcılığını sizlərə tanıdaram.

Yeni yeni kitablarla sizi sevindirək.

Bu yolda şairə uğurlar arzulayırıq.

2025